# RƏSUL RZA POEZİYASI



■ İradə Əlili



Azərbaycan poeziyasının görkəmli şairlərindən biri Rəsul Rza da məhz öz poetik duyğuları ilə ədəbiyyatımıza rəngarəng çalarlar qataraq oxucu qəlbini fəth etmişdir. Müasirlik ruhu ilə seçilən lirik şair, analitik bədii idrak sahibi kimi həyat hadisələrinə fəlsəfi yanaşma tərzini gətirdi.

Rəsul Rza insanda mənəvi aləmə, onun mədəniyyətinə yüksək dəyər verdiyi üçün şan-şöhrətdən, şöhrətpərəstlikdən, lovğalıqdan uzaq bir şəxsiyyət idi. Özünü öyənlərdən, diqqət mərkəzində olanlardan, boşboğazlardan, riyakarlardan xoşu gəlməzdi. Çalışırdı ki, yalançı, ikiüzlü, paxıl, yaltaq, şər-böhtançı adamlardan uzaq dursun. Mübahisə, çətinlik, gərginlik, konflikt, problem yaradan adamlara, onların xəyanətkar əməllərinə pis baxırdı. Ətrafı pisliklərlə qarışdıranlara, araya nifaq toxumu səpənlərə, heç nədən düşmənçilik yaradanlara, qırğın salanlara, ədəbsiz, mənliyi olmayan adamlara nifrət edirdi. Onları vicdanının ixtiyarına buraxırdı.

*Mən nə istəyirəm?*
*Yaxşı dost;*
*qəlbi açıq,*
*nə yaxşı günün dostu olsun,*
*nə ilqarda yarımçıq.*
*Düşmən necə olur-olsun*
*mərd-mərdanə,*
*üz-üzə vuruşan olsun.*

Rəsul Rza həqiqətin gözünə dik baxmağı bacarırdı. Çünki, düzlüyü, doğruluğu sevən insan idi. Həqiqəti öz donunda görməyi xoşlayırdı. Bilirdi ki, həqiqəti başqa cilddə görmək həyata qarşı inamı, marağı azaldır, insanı ümidsizləşdirir. Həqiqət güclü olduğu qədər də ağırdır. İnsan onun uğrunda daima mübarizə aparır, ona çatana qədər çox eniş-yoxuşlardan keçməli olur. R.Rza da güclü, xoşbəxt, mərhəmətli, ləyaqətli insan olduğu üçün həyat sınaqlarından üzüağ, alnıaçıq çıxırdı.

*Od nə çəkdi,*
*küldən soruş!*
*Baş nə çəkdi,*
*dildən soruş!*
*işə susuz barmaqların*
*kədərini insan bilir.*
*Nəğmələrin həsrətini,*
*bir qırılmış teldən soruş!*
*Hansı şeirim,*
*hansı sözüm*
*yaşayacaq məndən sonra?*
*Mən bilmirəm,*
*eldən soruş!*

Bəli, əsl sənətkarı xalq heç vaxt unutmur. Rəsul Rzanın da şeirləri, sözləri və əsərləri xalq tərəfindən sevilərək yaşadı və özündən sonra da adnını yaşatdı.

Rəsul Rza-elminin, mədəniyyətinin, düşüncələrinin, yaradıcılığının məhsulundan yaranan poeziyasının bir günəşi, nuru, işığıydı. Ondan bəhrələnən gənclik, bütöv oxucu kütləsi üçün o, bir məktəb idi. Unudulmayan, daim əziz tutulan məktəb

Rəsul Rza vicdanı pak, təmiz insan idi, çünki nəfsinin müəllimi idi. Vicdanının şagirdi idi. Vicdan onun üçün ən ali qanun idi, çünki ömrünün astanasında, təməlində duyğu və mənafelər deyil, vicdan və ağıl dururdu.

O, öz xalqının tarixini, dilini, mədəniyyətini yaxşı bilirdi. Ədəbiyyatımızda milli ruhu, milli düşüncəni yaxşı qiymətləndirirdi. Ədəbiyyata, şeirə, poeziyaya vurğun insan idi. Çünki sadaladıqlarımızı xalqın şüuru, neməti, mənəvi həyatının diriliyi sayırdı. O, bütün mənəviyyatı ilə xalqını sevən şair, yurdunun vurğunu, vətənin sədaqətli övladı idi.

*Xəfif yeldən titrəyən*
*yarpağına Vətən dedim.*
*Yanıq, quru*
*göy kəklikli,*
*boz qumrulu*
*torpağına Vətən dedim.*
*Dağlarının köpük duman*
*duvağına Vətən dedim.*

O, öz sənətinə vurğun şair idi. Onun sənəti - şairlik sənəti, yaradıcılığı cəmiyyətə, həyatda əbədi yaşaya bilmək sənətinə xidmət edirdi.

Dünyanı heç kim tutub durmur, insan özü ilə heç nə aparmır. Bircə təmiz adını, ona layiq olduğu hörmətini, etdiyi yaxşılığı, xeyirxahlığı qoyub gedir. Həyatda qoyub getdiyi kəlamları, sözləri, yazıları, kitabları, xatirələri, ona verilən ömürdə yaşadıqları və yaşatdıqları ilə, eyni zamanda həm də ürəklərdə, qəlblərdə, sevən könüllərdə, düşünən beyinlərdə, yaşayır... Rəsul Rza kimi...